# Otuz İkilər

Qarabağda, otuz iki oymaqdan meydana gəldiyi üçün, bu adla anılan böyük bir topluluq yaşayırdı. Bunlar Qarabağ Türkmənlərindən idilər. Son yüzillərdə Tərəkəmə deyilən Türklər bunların qalıqlarıdır. Otuz İkidən, Müqəddəm, Cavanşir, Əhmədlü, Gökçəlü, Qara-Qoyunlu, Ozan kimi ancaq bir neçə oymağın adını bilirik. Qarabağa aid Osmanlı tahrir dəftərlərinin incələnməsi sonucunda bu topluluğa mənsub digər bir çox obaların da adları və yurdlarını öyrənmək bəlkə mümkün olacaqdır.

a. ***Müqəddəm***: Müqəddəmlərin başı Tiz Rev Sultan Şirvanın fəthində bulunaraq yararlılıq göstərmişdir. Tiz Revin ölümündən sonra yerinə İskəndər Sultan keçdi. Adı keçən əmirin min nəfərlik əskəri ilə Dumdum qalasının zəbtinə qatılmış olduğunu görürük. Şah Abbas 1610-cu ildə Marağa valiliyini adı keçən oymağın başı Ağa Sultana verdi. Şah Səfi zamanında, hicri 1045-də (1635-1636) bu əmir yenə xan ünvanı ilə Marağa valiliyini mühafizə edirdi; öldükdə yerinə oğlu Qazi Xan keçdi. Bu şəkildə Otuz İkinin Müqəddəm obası Marağa yörəsində yerləşmiş və bəyləri də şəhərin valiliyini keçən yüzilədək əllərində tutmuşdurlar. Müqəddəm obası ilə bəylərinin nəsli zamanımızadək gəlmişdir.
b. ***Cavanşir***: Osmanlı fəthi üzərinə Qaramanlu, Qazaqlar, Şəmsəddinlü, Cavanşir oymaqlarının çoxu köç etdikləri Arasbarandan Qarabağdakı yurdlarına döndülər. Bunlara Dönük adı verildi. Adı keçən oymaqlar Osmanlı xidmətinə girdilər. Otuz İki oymağından biri olan Cavanşir obasının başı Hüseyin Mirzə Bəy də Osmanlı xidmətinə girmişdi. Hüseyin Mirzə Bəy Azərbaycanın geri alınması əsnasında Abbasın hüzuruna gəldiyindən oymaq bəyliyini mühafizə etdi. Ancaq qardaşı Əli Xan Bəyin oymaq bəyliyini əldə etmək istəməsi, hər ikisinin də hicri 1021-ci (1612) ildə həyatlarını itirmələrinə və oymağın başına qul dəstəsindən Novruz Sultanın gətirilməsinə nədən oldu. Cavanşirlərdən bir qisminin Türkiyəyə köç etmiş olduqları anlaşılır.

16-cı yüzildə Qarabağdakı ən önəmli oymaqlardan biri də ***Qazaqlar*** idi. İskəndər Bəy Qazaqların Otuz İkidən olub olmadığı haqqında heç bir şey söyləmir. Qazaqlar İspirlülər ilə birlikdə Osmanlı fəthinə qarşı durmuşlarsa da, sonra Osmanlı xidmətinə girmişlər, başları Nəzər Sultana paşa ünvanı verilmişdir. Oğlu Məhəmməd Xan, Abbas çağında Loru valisi idi. Məhəmməd Xanın Gürcülər tərəfindən öldürülməsi üzərinə mövqeyi qardaşı Mustafa Bəyə verilmiş, fəqət o da, hər halda Abbasın əmri ilə, ünlü Şəmsəddinlü Dəli Məhəmməd Bəy tərəfinfən qətl edilmişdir (hicri 1023 = 1614). Bundan sonra Abbas Qazaqların başına Şəmsi Xanı qoyub ona Farsdakı Darabcird valiliyini vermiş və Dönük Qazaqlar oymağını da oraya aparmasını əmr etmişdi. Abbasın bu əmri, sadəcə Dönük Qazaqları cəzalandırmaq üçün deyil, yeni bir Osmanlı təhlükəsi qarşısında əmniyyət düşüncəsi ilə də verdiyi şübhəsizdir. Ancaq çox az sonra Şəmsi Xanı Ahısqa valiliyində görürük (hicri 1036 = 1626-1627). Bundan Abbasın əmrini geri aldığı və ya çox keçmədən oymağın əski yurduna dönməsinə icazə verdiyi anlaşılır. Şəmsi Xan da Dönük olub, Osmanlıdan paşalıq ünvanı almışdı. Şəmsi Xan Ahısqa valisi ikən Osmanlılar ilə etdiyi bir savaşda yenilmiş, əskərlərinin çoxu öldürülmüş və özü də dustaq alınmışdı.

---

**Faruk Sümer — *«Safevi Devletinin Kuruluşu ve Gelişmesinde Anadolu Türklerinin Rolü»***

**© ATB — Azərbaycan Türkçülər Birliyi**